# Azərbaycan milli geyimləri Ankarada nümayiş olunub

**Ankaradakı "ATO Congresium" Beynəlxalq Sərgi Mərkəzində "Capital of Fashion COF'25" Beynəlxalq Hazır Geyimlər Moda Sərgisi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Anadoludakı ən böyük sərgilərdən olan Beynəlxalq Ankara Moda Sərgisi müxtəlif ölkələrdən iştirakçı və ziyarətçiləri bir araya gətirib.

Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə beynəlxalq sərgidə Azərbaycan da geniş təmsil olunur.

Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Bakı Milli Geyim Evinin Azərbaycan xalça naxışlarından və digər ornamentlərdən ibarət milli geyim kolleksiyası iştirakçılar tərəfindən maraq və alqışlarla qarşılanıb.



Azərbaycan milli geyimlərindən ibarət 12 qadın və 7 kişi milli geyimi, o cümlədən Azərbaycanın müxtəlif bölgələrinin milli geyim nümunələri türk manekenlər tərəfindən sərgilənib. Moda nümayişində Azərbaycanın "Taylors Home" geyim və parça butikinin təklif etdiyi 17 fərqli gəlinlik geyimləri də böyük marağa səbəb olub.

Azərbaycan.- 2025.-1 mart (№46).- S.11.